# İstifadə şərtləri və qaydası

Adı: “Zaman İQ” Məhdud Məsuliyyətli Cəmiyyəti (“Zaman İQ”)
Ünvanı: AZ1010,Zərifə Əliyeva küç.55, Yeni Həyat Plaza
Qeydiyyat nömrəsi: 1000407311
Dövlət qeydiyyatına alındığı tarix: 13.08.2021
Elektron poçt ünvanı: support@zamaniq.tech
Telefon nömrəsi:  +994 55 409 63 09

Bundan sonra Zaman İQ(Içracı) və Sifarişci ayrı-ayrılıqda “Sifarişci”, birlikdə “Tərəflər” adlandırıla bilərlər.

İcraçı avadanlığın quraşdırıldığı gündən etibarən 3 (üç) iş günü ərzində həmin avadanlığı izləmə sisteminə qoşmağı, və Sifarişçiyə Sistemə (www.geekbro.ai) daxil olmaq üçün unikal login və şifrə təqdim etməyi öhdəsinə götürür.
İcraçı sistemə login və şifrə haqqında məlumatların Sifarişçi tərəfindən açıqlanmaması və ya  müqavilədən kənar şəxslərə ötürülməməsinə görə məsuliyyət daşımır.
İcraçı Sifarişçiyə məxsus avadanlığına quraşdırılmış SİM kartların sınmasına, zədələnməsinə, oğurlanmasına görə məsuliyyət daşımır. Sifarişçi tərəfindən və ya üçüncü şəxslər tərəfindən zədələnmiş və ya sınmış SİM kartların bərpası üzrə bütün xərcləri öz öhdəsinə götürür.
İcraçı sistemə qoşulmuş avadanlığ(lar)a 24 (iyirmi dörd) saat texniki xidmətin göstərilməsini öz öhdəsinə götürür.
İcraçi Sifarişçi tərəfindən təqdim edilən (ona və ya üçüncü şəxsə aid) avadanlığın elektron GPS izləmə sisteminə qoşulmasını təmin edə bilər. Belə olan halda avadanlığa texniki xidmətə görə ödəniş Əlavə 1-də göstərilmiş xərclərə uyğun eynilik təşkil edəcəkdir.
Əmtəə qaimələrinin İcraçı tərəfindən kuryer, poçt və ya elektron poçt vasitəsi ilə Sifarişçiyə təqdim olunması günündən etibarən 10 (on) iş günü ərzində Sifarişçi aktı imzalanmış nüsxələrini İcraçıya qaytarmağı öhdəsinə götürür. Sifarişçiyə İcraçı tərəfindən imza üçün təqdim edilmiş aktların imzalanmaması əsaslandırılmış səbəblərlə gecikdirmək hüququna malik deyil.
Sifarişçi avadanlığın təchizatı, eləcə də avadanlığın quraşdırılması, təkrar quraşdırılması, sökülməsi və avadanlığın sistemə qoşulması, sistemdən ayrılması üçün İcraçıya təqdim edəcəyi sorğuları və digər müraciətləri yalnız yazılı şəkildə tərtib etməyi öhdəsinə götürür. Sorğu və digər müraciətlər yazılı şəkildə həyata keçirilir. Şifahi sorğu və müraciətlər görə Tərəflərdən heç biri məsuliyyət daşımır.
Müqavilənin ayrılmaz hissəsi olan qiymət razılaşdırma protokola əsasən avadanlığa quraşdırılmış SİM kart İcraçının mülkiyyəti hesab olunur. Əgər SİM kart Sifarişçinin nümayəndələri (əməkdaşları), üçüncü şəxslər tərəfindən zədələnərsə, itirilərsə və ya sıradan çıxarılarsa hər bir SİM karta görə qiymət razılaşdırma protokolda qeyd olunan cərimə ödəməyi öz öhdəsinə götürür.